# Tərlan QULİYEV - 60



Hörmətli Tərlan Quliyev - sizi, Azərbaycanın görkəmli alimlərindən birini 60 illiyiniz münasibətilə təbrik edirik.

Siz bu gün Azərbaycan ədəbiyyatşünaslığında klassik ədəbiyyatımızın yorulmaz tədqiqatçılarından birisiniz. Əruz vəzni, onun nəzəri və təcrübi problemləri tədqiqlərinizin əsas mahiyyətini təşkil edir. Məlumdur ki, əruz vəzni bütövlükdə klassik poeziyamızdan qırmızı bir xətt kimi keçir və bu vəzn olduqca mürəkkəb nəzəri quruluşa malikdir. Bu mənada əruzun nəzəri əsaslarını öyrənmək, onu klassik və müasir şairlərimizin yaradıcılıqlarında tətbiq edərək bu vəznin hansı xüsusiyyətlər daşıdığını araşdırmaq heç də asan məsələ deyildir. Siz uzun illərdir ki, məhz belə çətin bir sahənin ağırlığına çiyninizi vermiş, bu sahənin araşdırılması ilə məşğul olmusunuz. Məhz bu araşdırmaların nəticəsidir ki, "Əruz və qafiyəşünaslıq tarixi (VIII-XVI əsrlər)" kimi fundamental bir əsər ərsəyə gətirmiş, müəlliminiz, filologiya elmləri doktoru Əkrəm Cəfərin məşhur "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu" adlı əsərindən sonra Şərqşünaslıq tarixində bu mövzunun başqa bir istiqamətdən tədqiqatçısı olmusunuz. Ona görə də siz bu gün ölkəmizdə görkəmli əruz mütəxəssisi kimi qəbul edilirsiniz. Ümumiyyətlə, klassik ədəbiyyatımızın müxtəlif problemlərinə həsr olunmuş iki yüzdən çox əsəriniz klassik ədəbiyyatımızın öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Siz, eyni zamanda Azərbaycan ədəbiyyatının şah əsərlərindən biri olan "Dədə Qorqud kitabı" Vatikan nüsxəsinin naşirisiniz. Bu abidə məhz sizin uzun illər zəhmətinizdən sonra Azərbaycanda ilk dəfə işıq üzü görmüşdür. Bununla da siz Azərbaycan ədəbiyyatşünaslığı və mədəniyyəti qarşısında böyük xidmət göstərmisiniz.

Tərlan müəllim, siz uzun illərdir ki, Azərbaycan Televiziyasının müxtəlif kanallarında elmimizi, ədəbiyyatımızı, mədəniyyətimizi təbliğ edirsiniz. Eyni zamanda AzTV-də yayımlanan "Məclisi-üns" verilişinin daimi iştirakçılarından olmusunuz.

Görkəmli elm xadimi kimi elmimizi xarici ölkələrdə də təbliğ etmiş, ABŞ, Türkiyə, İran, Özbəkistan, Türkmənistan və b. ölkələrdə keçirilən müxtəlif elmi konfrans və simpoziumlarda iştirak etmisiniz.

Siz bu gün filologiya elmləri doktoru, professor kimi də səmərəli fəaliyyət göstərir, Azərbaycanın müxtəlif ali məktəblərində dərs deyir və Nizami adına Ədəbiyyat Muzeyinin tərkibində fəaliyyət göstərən Dissertasiya şurasının üzvü kimi gənc elmi kadrların yetişməsinə öz töhfənizi verirsiniz.

Tərlan müəllim, bir daha sizi yubileyiniz münasibətilə təbrik edir, cansağlığı və uğurlar arzulayırıq.

***Azərbaycan Yazıçılar Birliyi***

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 24 sentyabr.- S. 13**